AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

Əlyazması hüququnda

İLHAMƏ SALEH qızı RÜSTƏMOVA

# İNGİLİS VƏ AZƏRBAYCAN ROMANTİZMİNDƏ İNSAN KONSEPSİYASI

5718.01-Dünya ədəbiyyatı (İngilis ədəbiyyatı)

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2018

İş Gəncə Dövlət Universitetinin Azərbaycan və dünya ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya üzrə elmlər doktoru, professor<br>Naida Camal qızı Məmmədxanova |
| Rəsmi opponentlər: | filologiya üzrə elmlər doktoru, professor<br>Cəlil Qərib oğlu Nağıyev |
| | filologiya üzrə elmlər doktoru, professor<br>Şahin Həmid oğlu Xəlilli |
| Aparıcı təşkilat: | Azərbaycan Dövlət Pedaqoji Universitetinin<br>Azərbaycan və dünya ədəbiyyatı kafedrası |

Müdafiə_________________ 2018-ci il saat ________ Azərbaycan Dillər Universiteti nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.02.081 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat __________________________ 2018-ci ildə göndərilmişdir.

D.02.081 Dissertasiya Şurasının elmi katibi,
filologiya üzrə elmlər doktoru, dosent Həmidə Əhməd qızı Əliyeva

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

*Mövzunun aktuallığı.* Bədii ədəbiyyat daima insan təbiətini, insan qəlbinin xüsusiyyətlərini araşdıraraq, onu dərk etməyə çalışmışdır. Yarandığı gündən yazıçılar bədii söz vasitəsi ilə insanın varlığındakı sirri və sehri açmağa cəhd göstərmişlər. Lakin insan əbədi sirr olaraq qalır. Bu cəhdlər ən müxtəlif formada və fərqli yanaşmalarda özünü göstərib. Ədəbiyyat inkişaf etdikcə, insan probleminə, insan şəxsiyyətinə, onun daxili aləminə münasibət də dəyişir, ciddi təkamül yolu keçir. Hər ədəbi cərəyan öz qəhrəman tipini yaradaraq, özünəməxsus insan konsepsiyasını formalaşdırır. Dünya ədəbiyyatında novator cərəyan olan romantizmdə insan şəxsiyyəti, onun xəyal və arzuları ön plana çəkilir. Bu baxımdan romantizm, romantik ədəbiyyat xüsusi maraq kəsb edir. Dünya miqyaslı mədəni və ədəbi hadisə olaraq, romantizm bütün regionlarda və milli ədəbiyyatlarda mövcud olmuşdur. Romantik ədəbiyyatın ayrı-ayrı regionlarda və ölkələrdə yaranmasının xronoloji cəhətdən bir-birinə uyğun gəlməməsi isə həmin regionların və ölkələrin tarixi inkişafının xüsusiyyətləri ilə bağlı idi. Avropa ədəbiyyatından fərqli olaraq Azərbaycan ədəbiyyatında romantizm bir ədəbi cərəyan kimi XX əsrin önlərində meydana gəlmiş tənqidi realizmlə paralel mövcud olmuşdu. Avropada romantik ədəbiyyat XIX əsrin əvvəlində, Fransa inqlabından sonra meydana gəlmişdir. Romantizm burjua cəmiyyətinin cərəyanı idi. Hər iki regionda romantizm ümumi, oxşar cəhətlərlə yanaşı, fərqli cəhətlərə də malik idi. Bu fərqli cəhətlər insan konsepsiyasına münasibətdə qabarıq şəkildə nəzərə çarpır. Ümumiyyətlə, ədəbi əsərin, müəllifin diqqətinin insan şəxsiyyətində cəmləşməsi romantik ədəbiyyatın əsas cəhətidir. Bu maraq ən müxtəlif yollarla və vasitələrlə özünü biruzə verir, insan şəxsiyyəti özünəməxsus şəkildə izah olunurdu. Bu nöqteyi nəzərdən Azərbaycan və ingilis romantizmində irəli sürülən insan konsepsiyası bədii fəlsəfi məzmuna malikdir.

Azərbaycan və ingilis romantizmində insan konsepsiyasını müqayisə edərkən, ümumi cəhətlərlə yanaşı, çox ciddi fərqlər də üzə çıxır. İnsan konsepsiyası romantik ədəbiyyatın məğzini, əsasını təşkil etdiyi üçün, onun müqayisəsi də ciddi elmi maraq kəsb edir. Bir-birindən bir əsr zaman fərqi ilə formalaşmış hər iki romantizmdə yaranmış insan konsepsiyasının tədqiqi ədəbi nəzəri baxımından aktualdır. Mövzunun aktuallığını şərtləndirən amillərdən biri də bu konsepsiyanın tipoloji cəhətdən müqayisəli tədqiq edilməsidir.

*Tədqiqatın obyekti.* Mövzunun əsas obyektini dünya romantizmində önəmli yer tutan demonik ədəbiyyat – Hüseyn Cavidin "İblis" faciəsi, "Azər" dastan-poeması və müvafiq şerləri, Abbas Səhhətin, Məhəmməd Hadini əsərləri, C.Q.Bayronun "Qabil" dramı, "Çayld-Haroldun ziyarəti" poeması, V. Bleykin şerləri, P.B.Şellinin poemaları təşkil edir.

*Tədqiqatın predmeti.* Tədqiqatın predmetini Azərbaycan və ingilis romantizmində insan konsepsiyasının müqayisəli tipoloji təhlili problemi müəyyənləşdirir. Bu əsərlərdə insan konsepsiyasının spesifik xüsusiyyətlərinin araşdırılması və müqayisəli təhlil olunması tədqiqatın predmetini təşkil edir.

*Mövzunun işlənilmə dərəcəsi.* Romantizm bir ədəbi cərəyan kimi həmişə ədəbiyyatşünasların diqqətini cəlb edib. Romantik ədəbiyyat, onun xüsusiyyətləri ən müxtəlif aspektlərdən, yanaşmalardan tədqiq olunub, onların arasında həm ayrı-ayrı romantiklərin yaradıcılığına həsr olunan, həm də nəzəri-tipoloji əhəmiyyətə malik tədqiqatlara rast gəlmək mümkündür. Azərbaycan romantizmi H.Zeynallı, M.Cəfərin, [1] Y.Qarayevin, [2] Ə.İsmayılovun, [3] Ə.İbadoğlunun, [4] M.Əlioğlunun, [5] V.Osmanlının, [6] A.Hacıyevin [7] və bir sıra başqa görkəmli ədəbiyyatşünasların elmi əsərlərində hərtərəfli tədqiq olunub. Romantizm üzrə tədqiqatların çox olmasına baxmayaraq, məhz bu konsepsiya, onun Azərbaycan və İngilis ədəbiyyatında müqayisəli təhlili problemi (Ə.İsmayılovun tədqiqatı istisna olmaqla) kifayət qədər işlənilməmişdir.

*Tədqiqatın məqsəd və vəzifələri.* Disseratsiyanın əsas elmi məqsədi, müxtəlif sivilizasiyalarda yaranmış eyni ədəbi tarixi cərayanın – Azərbaycan və ingilis romantizminin romantik qəhrəman konsepsiyasını analitik tipoloji təhlil yolu ilə aşkara çıxarmaqdır.

Burada oxşar mövzular – demonizm kontekstində fövqəl qəhrəmanla, real qəhrəmanı bir ədəbi cərəyan kimi romantizmin

---

[1] Cəfər M. Azərbaycan ədəbiyyatında romantizm. Bakı: Az.SSR EA,1963.
[2] Qarayev Y. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzilləri. Bakı: Elm, 2002.
[3] İsmayılov Ə. Dünya romantizm ənənəsi və Hüseyn Cavid. Bakı: Yazıçı, 1982.
[4] İbadoğlu Ə.H. Cavidin "İblis" faciəsi. Bakı: Azərnəşr,1969.
[5] Əlioğlu M. Hüseyn Cavidin romantizmi. Bakı: Azərnəşr, 1975.
[6] Osmanlı V. Azərbaycan romantikləri. Bakı: Yazıçı, 1984.
[7] Гаджиев А. А. Романтизм и реализм. Баку: Элм, 1972.

estetik prinsipləri kontekstində təqdim etməkdir. Bu məqsədə nail olmaq üçün aşağıdakı tədqiqat vəzifələri həyata keçirilmişdir:

- Azərbaycanda və İngiltərədə romantik cərəyanın meydana gəlməsinin tarixi şərtlərini araşdırmaq;
- Avropa və Şərq təmaslarının dəyərlərinin vəhdəti kontekstində qəhrəman tipinin oxşar və fərqli cəhətlərini aşkara çıxarmaq;
- Hər iki ədəbiyyatda və onlardan seçilmiş bədii əsərlər əsasında romantik qəhrəmanın mövcud zamanla konfliktini tarixilik baxımından müəyyənləşdirmək;
- Azərbaycan və ingilis romantizmində lirik-dramatik və lirik-epik janrda yazan sənətkarların – C.Q.Bayronun, P.B.Şellinin, U.Bleykin, H.Cavidin, A.Səhhətin, M.Hadinin əsərlərində insan konsepsiyasının müqayisəli təhlilini vermək;
- H.Cavidin “İblis”, əsəri ilə C.Q.Bayronun poemaları arasında fövqəl qəhrəmanın mistik – romantik əlamətlərinə görə müqayisəli-tipoloji iş aparmaq.

*Tədqiqatın metodu.* Dissertasiya işində tarixi-müqayisəli və tipoloji təhlil metodlarından istifadə edilmişdir. Müxtəlif xarakterli materillar və faktlar toplanaraq sistemləşdirmiş, müqayisəli təhlil yolu ilə şərh edilmiş, ümumiləşdirmələr aparılmış və əsaslandırılmış elmi nəticələr çıxarılmışdır. Tədqiqatda tarixilik prinsipi və mədəniyyətlərarası münasibətlərin qarşılıqlı öyrənilməsi prinsipləri əsas götürülmüşdür. İngilis və Azərbaycan romantizmi fərqli zaman və məkanda yaranmasına baxmayaraq, müxtəlif mədəniyyətlərə məxsus xalqların ideya mövqelərinin yaxınlığı, onların bədii yaradıcılıq xüsusiyyətləri diqqət mərkəzinə çəkilmişdir.

*Dissertasiya işinin elmi yeniliyi.* Tədqiqatın elmi yeniliyi romantik ədəbiyyatda insan konsepsiyasının müqayisəsinin ilk dəfə aparılmasından ibarətdir. Yəni, Azərbaycan və ingilis ədəbiyyatşünaslığında bilavasitə insan konsepsiyasına, onun xüsusiyyətlərinin müqayisəli təhlilinə həsr olunmuş tədqiqat ilk dəfə aparılır.

*Müdafiəyə çıxarılan müddəalar:*

1. Şərq-Qərb dəyərləri vəhdətində Azərbaycan və ingilis romantizmi arasındakı əsas ədəbi tarixi təmas nöqtələrini müəyyənləşdirir.

2. Meydana gəlməsindəki zaman fərqinə baxmayaraq, bir ədəbi cərəyan kimi ingilis və Azərbaycan romantizminin estetik konsepsiyasında oxşar və fərqli cəhətləri mövcuddur.

3. Hər iki ədəbiyyatda romantik qəhrəmanın tipologiyasını onun estetik təkamülü kontekstində müəyyənləşdirir: romantik fəlsəfədən fəlsəfi romantizmə doğru.

4. Romantizmin təqdim etdiyi dünya modelində insanın həlledici mövqeyi onun xarakterinin təhlili yolu ilə aşkara çıxarılır.

5. Müqayisəli ədəbiyyatşünaslığın prinsiplərinə uyğun olaraq, Azərbaycan və ingilis romantizminin tədqiqi problemləri ümumiləşdirilərək, onun əsasında prioritetləri müəyyənləşdirilmişdir.

*Tədqiqat işinin nəzəri əhəmiyyəti.* İşin nəzəri əhəmiyyəti tədqiqatın yeni aspektdən aparılmasından və sonrakı tədqiqatlar üçün təməl yarada bilməsindən ibarətdir. Tədqiqat ədəbiyyat nəzəriyyəsi, ədəbiyyat tarixi, mədəniyyətşünaslıq sahəsində elmi araşdırmalar üçün ədəbiyyatşünaslıqda müqayisəli tədqiqatlar üçün yeni istiqamətlər aça bilər. Bundan əlavə, tədqiqatdan əldə edilmiş müddəalar ayrı-ayrı romantiklərin-C.Q. Bayronun, P.B.Şellinin,U.Bleykin, H.Cavidin, A.Səhhətin, M.Hadinin yaradıcılığını yeni aspektlərdən tədqiq etmək üçün təməl yaradır.

*Dissertasiya işinin praktik əhəmiyyəti.* Tədqiqatdan əldə edilmiş nəticələr və müddəalar romantizm üzrə mühazirə kurslarının, seçmə fənnlərin hazırlanmasında, XIX əsr dünya ədəbiyatı, mədəniyyətşünaslıq fənninin tədrisində istifadə edilə bilər.

*Dissertasiya işinin aprobasiyası.* Dissertasiya işi Gəncə Dövlət Universitetinin Azərbaycan və dünya ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir. Tədqiqat işinin əsas müddəaları ilə bağlı Beynəlxalq konfranslarda məruzələr edilmiş, bilavasitə tədqiqat mövzusu ilə bağlı Azərbaycan Respublikası və xarici ölkələrin elmi jurnallarında 3 tezis və 8 məqalə dərc olunmuşdur.

*Dissertasiya işinin strukturu.* Dissertasiya işi giriş, iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiyanın *"Giriş"* hissəsində mövzunun elmi aktuallığı əsaslandırılır, tədqiqatın obyekt və predmeti, işin məqsəd və vəzifələri, onun nəzəri və təcrübi əhəmiyyəti, müdafiəyə təqdim edilən əsas müddəaları, dissertasiyanın aprobasiyası və quruluşu haqqında məlumat verilir.

Dissertasiyanın birinci fəsli *"İngilis və Azərbaycan romantizmində qəhrəman tipologiyası"* adlanır.

Romantizm dünya ədəbiyyatının və ümumilikdə dünya mədəniyyətinin həssas hadisələrindən biri kimi çox mühüm bir tarixi epoxanı əhatə edir. İdeya məzmun və poetik xüsusiyyətlər baxımından hər bir milli mədəniyyətin, ədəbiyyatın formalaşmasında çox mühüm rol oynamışdır. Məhz buna görə də, romantizm meydana gələn dövrdən bu ədəbi cərəyana çox böyük maraq göstərilərək, bu sahədə ciddi tədqiqatlar aparılmışdır. Zaman keçdikcə bu maraq azalmır, əksinə, daha da artırdı. Bu da təsadüfi deyil, çünki romantizm cərəyanı sonrakı ədəbi inkişafa son dərəcə böyük təsir göstərmişdir. Dünya romanizm cərəyanının öyrənilməsi ilə Azərbaycanda, İngiltərədə, Rusiyada bir çox görkəmli tədqiqatçılar məşğul olmuşdur.

Romantizmin yaranması tarixi hadisələrlə sıx bağlıdır və Şərqdə romantizm Qərbdə olduğundan daha gec – XX əsrin əvvəlində meydana gəlmişdir. Tarixi hadisələrə bağlılıq romantizmin öyrənilməsini sadələşdirmir, bəlkə də, onu daha da mürəkkəbləşdirir. Qərbdə romantizmin yaranmasına Fransa burjua inqilabı, Azərbaycada (1905-1907) xalq inqilabı, milli-azadlıq hərakatı, müstəmləkəyə qarşı mübarizə təkan vermişdir. Bu oxşarlıq da, öz növbəsində tipologiya məsələsini üzə çıxarır. Romantizmi tədqiq edən alimlərin hamısı bir məsələdə həmişə həmfikirdirlər: yaranma zamanından, məkanından, milli xüsusiyyətlərindən asılı olmayaraq, hər bir milli romantizm (bizim tədqiqatda konkret olaraq ingilis və Azərbaycan romantizmi) ümumi cəhətlərə malikdir və məhz buna görə də, dünya ədəbiyyatının universal metodlarından biridir. S.İ. Ojeqovun "Rus dili lüğətində" tipologiya məvhumunun aşağıdakı tərifi verilir: "Tipologiya-əsasında obyeklərin bölünməsi və onların ümumi modeli və tipi əsasında qruplaşdırılması duran elmi metoddur". [1] Tipologiya hadisələrin, faktların oxşar xüsusiyyətlərini, onların müqayisəli təhlili əsasında üzə çıxarmağa imkan yaradır. Bədii-estetik hadisələr zaman və məkan baxımından bir-birindən uzaq olduğuna görə, adi müqayisə oxşar xüsusiyyətləri bütün incəliyi və zənginliyi ilə üzə çıxarmağa imkan vermir.

Belə hallarda tipoloji müqayisəyə müraciət olunmalıdır. Məhz bu səbəbdən romantizmi tarixi kontekstdən ayrı şəkildə təhlil etmək düzgün olmazdı. Qərbi Avropa romantizmi feodalizmin dağıldığı, yeni burjua cəmiyyətinin qurulduğu dövrə təsadüf edirdi. Şərq, konkret olaraq Azərbaycan romantizmi isə İranda, Türkiyədə inqilabların baş verdiyi və Yaxın Şərqdə milli-azadlıq hərakatlarının genişləndiyi vaxta təsadüf edir.

---

[1] Ожегов С.И. Толковый словарь русского языка. в. 3-х т., Т. 3, М.: Изд-во АН СССР, 1984.

Bu isə Q. Pospelovun irəli sürdüyü "cəmiyyətlərin və ədəbiyyatların durumunda analogiya", [1] haqqında fikrini təsdiq edir. Romantizmin meydana gəlməsində xronoloji uyğunsuzluq bu regionların inkişafında mövcud olan uyğunsuzluqla bağlıdır. Hər bir milli ədəbiyyatın, romantizmin tipologyası müstəqil bədii sistem kimi tədqiq olunmalıdır. Belə tipologiyanın aktuallığını yalnız dünya ədəbiyyatı çərçivəsində üzə çıxarmaq mümkündür, çünki yalnız belə yanaşma regionalararası müqayisələr aparmaq üçün imkan yaradır.

Ümumiyyətlə, insanın daxili aləminə maraq romantizmin tipoloji xüsusiyyətlərindən biri və bəlkə də, ən əsasıdır. Romantikləri obyektiv reallıq o qədər də cəlb etmir, çünki bu reallıq diqqətə layiq deyil. Romantizmdə əsas rolu baş qəhrəman oynayır və əsərdə bütün hadisələr məhz bu qəhrəmanın həmin hadisələrə münasibəti prizmasından qiymətləndirilir. Romantik qəhrəman cəmiyyətdə ən müxtəlif mövqe tuta bilər – o şair, rəssam, üsyankar ola bilər. Belə qəhrəman ideal cəmiyyət yaratmaq arzusu ilə yaşayır və onun xoşbəxt gələcəyə inamı da, həmin cəmiyyətin qurulması ilə bağlı idi. Lakin ideal cəmiyyət bir arzudur. Romantik qəhrəman isə, real cəmiyyətdə yaşayır, onun üçün ayrı, məxsusi dünya yoxdu bu qəhrəman həyatda olan gerçəkliyi görür, onun mahiyyətini dərk edirdi. Buna görə romantiklər insanların cəmiyyətdən asıllığını, cəmiyyətdə mövcud olan qaydaları ləğv etməyin mümkün olmamasını göstərmişdilər. Romantik qəhrəman gerçəkliklə mübarizəyə qalxır, lakin təkbaşına dünyanı dəyişə bilmir. Deyilən cəhətlər eynilə hər bir milli ədəbiyyatda romantizm cərəyanı üçün səciyyəvi xarakter daşıyır. Bu cəhət İngilis və Azərbaycan romantik ədəbiyyatının müqayisəsində, qəhrəman tipologiyasının təhlilində xüsusi maraq kəsb edir.

Birinci fəslin birinci yarımfəsli *"İngilis romantiklərinin yaradıcılığında qəhrəman кonsepsiyasının mənbələri, xüsusiyyətləri və təkamülü"* adlanır.

İngilis romantizminin ən əsas xüsusiyyətləri-burjua cəmiyyətinə barışmaz münasibət, ali, yüksək ideallarrın reallıqla uyuşmaması-cəmiyyətdə hökm sürən əhval-ruhiyyədən irəli gəlidi. Romantiklər yeni, yalnız maddi maraq üzrə qurulan ictimai münasibətlərə etirazlarını müxtəlif yollarla ifadə edirdilər. Romantik sənətin metodunu məhz həyata münasibətin mahiyyəti və onun bədii ifadəsi təşkil edir. Həmin münasibət romantiklərin yaradıcılığında tam fərdi şəkildə özünü göstərirdi. Belə ki, Kolricin fəlsəfi axtarışları, Vordsvortun kənd həyatının ideallaşdırması,

[1] Поспелов Г.Н. Искусство и эстетика. М.: Искусство, 1984, 53 с.

Şellinin inqilabi utopiyaları, Kitsin gözəllik idealı,Valter Skottun tarixə, keçmişə marağı, Bayronun üsyankarlığı- bunların hamısı sözsüz ki, eyni romantik etirazın müxtəlif formaları idi.

Y.Lotman qeyd edir ki, "romantizm dövrünün mədəniyyətinin və ədəbiyyatının əsas xüsusiyyətlərindən biri də yeni insan tipinin yaranması ilə bağlı idi. XIX əsrin əvvəllərinin ədəbiyatında insan şəxsiyyətinin izahı yeni, müstəqil konsepsiya kimi formalaşırdı və bu da, ədəbiyyatda çox maraqlı və bəlkə də ən gözəl hadisələrdən biri idi. Romantiklər yeni dünyagörüşünü təsdiq edir və həmin dünyagörüşü həyatın və incəsənətin sintezi əsasında yaranırdı. Klassistlər insanı hökmdarın sadiq rəiyyəti, maarifçilər insanı əsasən ailə çərçivəsində tədqiq etdiyi halda, romantiklər insanı ilk növbədə azad şəxsiyyət kimi qəbul edirdilər. Romantik qəhrəmanın daxili, mənəvi aləmi təbii şəraitdən yaxud ictimai durumdan qat-qat zəngin idi və məhz insanın özü, insanın həyatı bütün zənginliyi və çoxşaxəliliyi ilə romantiklərin diqqətini cəlb edir və romantizm fəlsəfəsinin və estetikasının əsas prinsipinə çevirilir".[1]

Romantik ədəbiyyat öz inkişafında bir neçə mərhələdən keçmişdi. İngilis ədəbiyyatında romantik cərəyanın üç böyük dövrü nümayiş olunur; yəni, bu üç dövrdə hakim bədii ruh romantik idi. Bu, əlbəttə ki, klassik ruhun olmadığı anlamına gəlmir; romantik zirvədə belə, kifayət qədər klassik düşüncələr var idi. Beləliklə, İngiltərədə romantizm cərəyanı üç rübə bölünür, paleo-romantizm, meso-romantizm və neo-romantizm, və yaxud Orta əsr, Elizabet dövrü və Müasir Romantizm.[2]

Təbii ki, romantik qəhrəman da müəyyən dəyişikliklərə məruz qalmışdı. Belə ki, erkən romantiklər son dərəcə nikbin idi. Buna səbəb Fransız inqilabının gətirəcəyi "Yeni dünyaya", ümumiyyətlə, insan hüquqlarının olduğu ideal cəmiyyətin qurulmasına bəslənən ümidlər idi.[3] Lakin, XIX əsrin birinci onilliyində həmin nikbinlik sona yetir, mütləqiyyətin və kubarlığın zülmü pulun, maddi marağın hökmü ilə əvəz olunur. Nəticədə insan şəxsiyyəti, yaradıcı şəxs yenə də reallığın məngənəsində çırpınır. Reallıq insanı özünə tabe edir və insan qəlbinin,

[1] Лотман Ю.М. О содержании и структуре понятия «художественная литература» (Изб. статьи.).в2-х т. Т.1. Таллин: Александра,1992, с.108

[2] Dr. Harko G. De Maar. A history of Modern English Romanticism. New York, 1970, p.13.

[3] David Duff. Romance and Revolution: Shelley and the Politics of a Genre. Cambridge University Press, 1994, p.13

ruhunun tam azadlığını əsas tutan dünyagörüşü, ruhun obyektiv reallıqdan asılılığını elan etməsi ilə əvəz edilir.[1]

U.Foxt "Romantizm problemləri" tədqiqatında qeyd edirdı ki, "romantik əsərlər gerçəklikdən narazılıq şəraitində yaranır. Bu narazılıq fərqli dərəcədə ifadə edilə bilər, yəni narazılıq tam qəti, yaxud nisbi ola bilər"[3]. [2] "Şərq poemaları"nda məhz qətiyyət aşkar nəzərə çarpır. Yeni, burjua cəmiyyətini qəbul etməmək prinsipi bütün romantiklər üçün səciyyəvi olan xüsusiyyətdir. Bu ideoloji mövqe ingilis romantiklərin əsərlərində fərqli siyasi xarakter alır. Vordsvort və Kolric mürtəce qüvvələrlə müəyyyən kompromis əldə etdiyi halda, Bayron və Şellinin yaradıcılığı dünyanın haqsızlığını tam qəbul etməməklə səciyyələnir.

Romantik qəhrəman məfhumu hər bir romantik şairin əsərlərində fərqli şəkildə təqdim olunmasına baxmayaraq, onun ümumi, oxşar cəhətləri daim qorunub saxlanılır. Həmin xüsusiyyətlərin başlıcası- romantik qəhrəmanın onu əhatə edən gerçəklikdən narazı olması, həmin gerçəkliyə qarşı açıq, kəskin etirazı, hətta onunla mübarizə aparmasıdır. Bu fərq ingilis romantiklərinin yaradıcılığında daha qabarıq şəkildə nəzərə çarpır. İngilis romantikləri iki qola-aktiv (fəal) və passiv romantiklərə bölünürdülər. Bayron və Şelli ingilis romantizminin aktiv qolunu, Bleyk, Vordsvort, Kolric isə - passiv qolunu təmsil edirdilər. Bu baxımdan, qəhrəman tipologiyası problemi xüsusi malikdir.

Bayron, ekzotik və tarixi şərtlərin şiddət və dramını istismar edən əsərlərlə bütöv Avropaya böyük bir şöhrət gətirdi. Y.V.Gete Bayron haqqında deyirdi ki: "Şübhəsiz ki, o bizim əsrimizin ən böyük dahisidir".[3]

Romantik qəhrəman kimdir? Bu məsələyə aydınlıq gətirmək üçün ilk növbədə Corc Qordon Bayronun (1788-1824) yaradıcılığına müraciət etmək məntiqi olardı.Bayron özünün, ədəbiyyatda tam yeni olan insan konsepsiyasını yaratmışdı. Avropa romantizmində Bayron qədər insan şəxsiyyətinin "mütləqiyyətini" təsdiq edən, onu müdafiə edən ədib yox idi. Bayronun yaratdığı şəxsiyyət konsepsiyası Avropa humanist dünya görüşününün, təfəkkürünün, inkişafının mühüm və məntiqi nəticəsi idi.

Bayronun romantik qəhrəmanlarının mənəvi aləmi çox zəngin və geniş diapazona malikdir - həyatdan çiyrinmiş, darıxan Çayld-Harolddan

---

[1] Simon Williams. Wagner and the romantic hero. New York:Cambridge University Press, 2004, p.12

[2] Фохт У. Проблемы романтизма. М.: Искусство, 1967, с.28

[3] Rupert Christiansen. Romantic Affinities: Portraits From an Age, 1780–1830. London: Bodley Head, 1988, p.211

başlamış Tanrının özünə qarşı üsyan qaldıran Qabilə qədər. Manfred, Sardanapal, Venesiya dramlarının qəhrəmanları, dərin düşünən, hər şeyə diqqət yetirən, dərindən sezən Don-Juan, nəhayət Bayronun şerlərində olan lirik qəhrəman–bu surətlər sadalandıqca, onların arasında fərq də, nəzərə çarpır. Bu fərq ilk növbədə qəhrəmanın öz fərdi xüsusiyyətləri ilə bağlıdır. Şübhəsiz ki, bütün romantik qəhrəmanlar ümumi cəhətlərə malikdir və eyni müəllifin əsərlərində bu yaxınlıq daha böyükdür. Lakin, bütöv bir cərəyan çərçivəsində romantik qəhrəman məvhumunu təhlil edərkən artıq tipoloji oxşarlıq haqqında söhbət açmaq mümkündür.

Dünya romantizmi tarixində Bayron bəlkə də ən subyektiv romantikdir. Şairin bütün əsərlərində, qəhrəmanların hamısında müəllifin öz şəxsi xarakterinin bir hissəsinin əks olunması daim hiss olunur, duyulur. Şübhəsiz ki, Bayronu onun qəhrəmanları ilə eyniləşdirmək düzgün olmazdı. Lakin, belə eyniləşdirmə vaxtikən mövcud idi və bunun da obyektiv səbəbləri var idi. Eyniləşdirmə Bayronun ilk iri həcmli əsəri "Çayld Haroldun ziyarəti" poeması nəşr olunandan sonra başlamışdı. Poema nəşr olunduğu gündən oxucular artıq tam əmindilər ki, Çayld-Harold müəllifin özüdür. Bu əlbəttə ki, yalnış fikir idi. Bayronun Avropaya səfəri, "Çayld Haroldun ziyarətləri" (Childe Harold's Pilgrimage, 1812) adlı poemanın iki kantosu - bir gəncin Avropanı sərgüzəştləri ilə bağlı bir epik qəhrəmanlıq əsəri ilə nətricələndi. Əsər eyni zamanda London ictimaiyyətinə qarşı kəskin bir satira idi. Bayron poemada 1809-1811-ci illər arasında səfərlərində qazandığı təcrübələrdən də, bir sıra hekayələr xətti yaratdığına görə əsər həmçinin, avtobioqrafik cəhətdən düşünülmüş elementləri ehtiva edir.[1]

Bayronun qəhrəmanları ciddi təkamül yolu keçir- ilk passiv qəhrəman Çayld-Harolddan, "Şərq poemaları"nın bütün dünyadan qisas alan qəhrəmanlarından, dərin düşünən, intiqam hissindən uzaq, düşünülmüş İngilis romantizminin "aktiv" qolunun başqa parlaq nümayəndəsi Persi Biş Şellidir (1792-1822). Şellinin yaradıcılığı ingilis romantizminin mühüm səhifəsini təşkil edir. Bayron və Şellini yaradıcılıq dostluğu, dünyagörüşünün uyğunluğu, həyatdakı gerçəkliyə yanaşma, nəhayət haqsızlığa qarşı barışmaz münasibət birləşdirirdi. Şelli də Bayron kimi, digər tərəfdən isə XVIII əsrin 80-90 -cı illərinin demokratik maarifçilik ideyalarının varisi idi. Eyni zamanda Şellinin yaradıcılığı dostu və həmkarı Bayronun yaradıcılığından köklü şəkildə fərqlənir. Bu fərq Şellinin

---

[1] Poems & Poets viewed.12 May 2013. p.32, http://www.poetryfoundation.org/ etiraz sahibi olan Qabilə qədər

əsərlərinin son dərəcə nikbin olmasından ibarətdir. “Gün gələcək!” - Şellinin ən ağır, bədbin əsərləri belə bu şuarla bitir. Başqa bir cəhət- Şelli fərdiyyətçi mövqeyini heç vaxt qəbul etmir, ona mənfi, tənqidi yanaşırdı. Şellinin romantik qəhrəmanları heç vaxt özünü xalqa qarşı qoymur, ondan uzaqlaşmır, əksinə xalqla sıx bağlıdır. Daha bir fərqli cəhət ondan ibarətdir ki, Şelli siyasi, mənəvi təzyiqi tənqid etməkdən əlavə, xalq kütləsinin iqtisadi istismarını da ifşa edirdi. Burada maraqlı bir təzad üzə çıxır. Belə ki, iqtisadi amili nəzərə alan yeganə romantik şair Şelli əsərlərində fantastika elementlərinə Bayrondan daha çox yer verirdi. Romantizmin mahiyyətini dərindən dərk etmək üçün daha bir dahi ingilis romantiki-Vilyam Bleykin (1757-1827) yaradıcılığını tədqiqata cəlb etmişik. Vilyam Bleykin yaradıclığı İngiltərə ədəbiyyatında, mədəniyyətində xüsusi yer tutur. İngilis ədəbiyyatının nəhəng simalarından olan Bleyki müasirləri demək olar ki, tanımırdı. Londonda dünyaya gələn Bleyk oymaçılıqla məşğul olmuşdur, oyulmuş lövhələrə qarışıq dizaynlar verir və mətnləri müxtəlif kombinasiyalarda yığır, beləliklə dizayn və mətn bir-birini işıqlandırırdı.[1] Ancaq onun yaratdığı əsərlər sağlığında sərgilərə çıxarılmırdi. Şairin ədəbi əsərlərini də həmin tale gözləyirdi. Bleykin poetik irsinə maraq şairin vəfatından sonra göstərilməyə başlayır.

Bleykin ədəbi irsi geniş və çoxşaxəlidir. Burada lirik şerlər də, satirik parodiyalar da, poemalar da var. Şair özü həmin poemaları “gələcəkdən xəbər” adlandırırdı. Şair Fransa inqilabını salamlayır, ona böyük ümidlər bəsləyirdi və hətta “ingilis yakobinləri” cəmiyyyəti ilə əlaqə yaratmışdı.

Şairin mənəvi axtarşlarını və dünyaya baxışını ümumiləşdirmək üçün iki əsərə “Səma və Cəhənnəmin nigahı” və “Yerusəlim, Albion nəhənginin emanasiyası”na müraciət etmək məqsədəuyğun görünür. Bu iki əsər bütün silsilənin struktur prinsiplərini özündə birləşdirir. Bleykin poetik mifologiyası romantik mif konteksti ilə əlaqə yaradır. Bu əsatirdə əsas rolu yaradıcı şəxs oynayır. Yəni, Bleykin yatadığı mifoloji sistem əslində onun estetik konsepsiyasının aynasıdır. Bu konsepsiyanın mərkəzində rəmzlər hakim rol oynayır. Bleykin “öncəgörən” poemalarında mifoloji obrazların xüsusiyyətlərini də, məhz rəmzin strukturu müəyyən edir. Bleykin mifoloji fantaziyası romantizmlə, onun mahiyyəti ilə möhkəm əlaqə yaradır.[2]

---

[1] Harold Bloom.The Visionary Company: A Reading of English Romantic Poetry. New York: Cornell University Press, 1971, p.6

[2] Richard Garnett.William Blake/ Painter and Poet. London: Seeley and Co.Limited, Essex Street, Strand New York, Macmillan and Co., 1895, p.65

Bleyk, öz mifologiyasında həyatın dialektikliyini əks etməyə çalışırdır. Bleyk hər yerdə, həmişə qəbul olunduğundan daha dərinə gedir, qaldırdığı problemlərə daha qlobal şəkildə yanaşırdı. Bu xüsusiyyət onu Şellinin əsərləri ilə yaxın edir. Bayronla oxşarlığa gəldikdə isə, Bayron rəmzlərdən çox insan duyğularının təsvirinə, siyasi problemlərə üstünlük verir və qeyri-real, fantastik aləmdən uzaqlaşaraq reallığa can atır, realizmə yaxınlaşırdı.

Deyilənlərə əsaslanaraq artıq ingilis ədəbiyyatında romantik şəxsiyyət konsepsiyasının xüsusiyyətlərinin müəyyən olunmasını qeyd etmək mümkündür. İlk növbədə, romantik ədəbiyyatda iki növ qəhrəman tipi mövcud idi-erkən və sonrakı dövrün qəhrəmanı. Bu iki tip biri birindən təbii olaraq, fərqlənir. Birinci tip nikbinliyi ilə seçilir və o Fransa inqilabının gətirdiyi yeni dünyaya inam bəsləyir. İkinci tip qəhrəman isə son dərəcə bədbindir və artıq inqilabın ona bəslənn ümidləri doğrultmadığını tam aydınlıla dərk edir. Buna görə də bu qəhrəman məyusdur və eyni zamanda haqsızlıqla barışmır, ona qarşı daim üsyan qaldırır, etiraz səsini ucaldır. Belə üsyankar qəhrəman ən müxtəlif şəkildə təsvir edilə bilər. Məsələn, Bayronun "Şərq poemaları"nın qəhrəmanları, Bleykin fantastik obrazları, Şellinin yaratdığı alleqorik surətlər və s.

İngilis ədəbiyyatında romantik cərəyan bütöv bir axın deyildi. Romantizmin ayrı-ayrı qollarının nümayəndələri ən müxtəlif vasitələrə müraciət edir və çoxşahəli obrazlar yaradırdı. Eyni zamanda, burada müəyyən oxşarlıq da mövcuddur. Bu da sadalanan obrazların romantik qəhrəman konsepsiyasına uyğun olması ilə bağlıdır.

Birinci fəslin ikinci yarımfəsli *"Azərbaycan romantiklərinin poetik düşüncəsində qəhrəman konsepsiyasının formalaşması"* adlanır.

Azərbaycan ədəbiyyatında romantizm cərəyanı tam şəkildə XX əsrin əvvəlində formalaşmışdı. Avropada olduğu kimi, Azərbaycanda da romantizmin meydana gəlməsi dünya əhəmiyyətli tarixi hadisələrlə bağlı idi və öz xüsusi sosial-tarixi köklərinə malik idi. Şərq romantizmi də XX əsrin əvvəlində meydana gəlir və XX əsrin əvvəlində baş verən tarixi sarsıntıları özündə əks edirdi.

XIX əsrin sonunda – XX əsrin əvvəlində Azərbaycan ədəbiyyatında yeni nəsil yazıb yaratmağa başlayır. Həmin ədiblər artıq demokratik mövqedən çıxış edir və Azərbaycan ədəbiyyatında yeni insan konsepsiyası formalaşırdı. Həmin konsepsiya insanın şeir, poeziya vasitəsi ilə fəal mübarizə aparmasından ibarət idi.

1905-ci ildən başlayaraq Azəbaycan romantikləri arasında “cahanşümül sevgi” ideyası geniş təbliğ olunurdu. Bu ideya sufi fəlsəfəsindən bəhrələnir və romantiklər arasında çox populyar idi. Azərbaycan romantiklərinin hər biri ona bu və ya digər formada müraciət etmişdi. I Dünya Müharibəsi bu ideyanın tutarsız olduğunu sübut etdi və romantiklər öz mövqeyini, konsepsiyasını əsaslı şəkildə dəyişdi. Artıq sənətkarlar azadlığın yalnız uzun və gərgin mübarizə nəticəsində əldə oluna biləcəyini bəyan edirdilər. Məsələn, H.Cavid I Dünya Müharibəsindən əvvəl yazdığı “Mənim Tanrım” şerində “Mənim Tanrım gözəlikdir, sevgidir” sözlərini dönə-dönə təkrar edirdi. Lakin, 1915- ci ildə yazdığı “Qürubə qarşı” şerində şairin mövqeyi artıq tam başqadır:

Qılınclar, süngülər, toplar, tüfənglər gurlayıb, parlar
Nə istər bir-birindən anlaşılmaz sayınız insan.[1]

XX əsrin əvvəlində Şərqdə demokratik hərəkatlar artıq güclənir, fəallaşır və bu proseslər də romantik ədəbiyyatda öz əksini tapırdı. Burada M.Hadinin yaradıcılığına müraciət etmək məqsədə uyğun olardı. Belə ki, M.Hadi Avropa ölkələrində feodal münasibətlərin aradan qaldırılmasını, ruhanilərin nüfuzunun zəifləməsini, elmin, texnikanın inkişafını görərkən, Avropa xalqlarının artıq ideal cəmiyyyətin yaranmasına yaxınlaşdığını zənn edirdi. Belə fikir “Qərb-cənnət, Şərq-cəhənnəm” antitezasının yaranmasına gətirib çıxarırdı.

Məqribdə var maarif, Məşriqdə var cəhalət
Məqribdə hürrdür xalq, Məşriqdə var əsarət.

Qərbin gözü açıqdır, Məqribdə var bəsirət
Kordur desəm əhali Məşriqdə, etmə heyrət![2]

Azərbaycan romantizmi haqqında söhbət açarkən A.Səhhətin yaradıcılığını xüsusən qeyd etmək lazımdır. A. Səhhət öz yaradıcılığında ən müxtəlif üslublara müraciət edirdi. Bu baxımdan Səhhətin “Şair, Şer pərisi, və Şəhərli” əsəri, və “Təzə şer necə olmalıdır?”, “Edadi məktəblərdə ana dili”, “Milli ideallar” adlı məqalələri şairin ədəbi-estetik görüşlər sistemini əks etdirən ən səciyyəvi əsərlərdir. “Fikrimiz-tərbiyeyi millətdir”, “Şair-

[1] Cavid H. Əsərləri: 5 cilddə, I c., Bakı: Lider, 2005, s.99
[2] Hadi Məhəmməd Əsərləri 2 cilddə, I cild, Bakı: Elm, 2002, s.266

ayinəsidir dünyanın”-Səhhətin bu nəzəri proqramı müasirliyi, vətəndaşlığı, həyatiliyi, milliliyi ön plana keçirir, saf, təmiz ana dilinin, xəlqi üslubunu, milli vəzn səpgisini qəbul edir, təsbit edirdi. Xəyalla, mistika və idealla yanaşı birbaşa təbiətdən, həyatda gördüklərindən fərdi müşahidə və təfsilat burada çox güclü idi.

Lakin hakim idrak üsulu, dominant yaradıcılıq tərzi, poetika-tipologiya baxımından Səhhət poeziyası şübhəsiz ki, romantik poeziya olaraq qalırdı. Bu şerin bədii metodu, cərəyan mənsubiyyəti, ümumiyyətlə poeziyada “Səhhət romantizmi” indiyə qədər açılmamış bir fenomendir. A.Səhhət həqiqətən yaradıcılığında heç bir başqa sənətkara bənzəmirdi.

A.Səhhəti hamıdan fərqləndirən fərdiliyin, təkrasızlığın əsas əlaməti də, onun Azərbaycanın poetik xəritəsində milli, etnik landşaftı dəyişməyə nail olması, yeni “Azərbaycan”, “Vətən” coğrafyasını yaratması, “ana millət”, “ana dili” məfhumlarının sənətdə, poeziyada sərhədlərini dəqiqləşdirməsindən ibarətdir”.[1]

M.Cəfər Azərbaycan ədəbiyyatının XX əsrin əvvəlində bir xüsusiyyətə malik olduğunu da göstərirdi: romantiklərin bəziləri sonralar realistik yaradıcı metoduna üstünlük verir, bəziləri öz yaradıcılığında romantizmlə realizmin vəhdətini yaradır, bəziləri isə axıra qədər sırf romantizm mövqeyində qalırdı. Bununla yanaşı spesifik romantik cəhətlər o dövrdə yazıb-yaradan hər bir sənətkarın yaradıcılığında müşahidə olunur və sadəcə fərqli şəkildə özünü biruzə verirdi. Məsələn, A.Səhhət həm romantik, həm realist üslubda yazır, A.Şaiq və C.Cabbarlı realizmi seçir, H.Cavid və M.Hadi romantizmə sadiq qalmışdı.[2]

İkinci fəsil *“İngilis və Azərbaycan romantiklərinin yaradıcılığında romantik qəhrəman şəxsiyyəti konsepsiyasının müqayisəli təhlili”* adlanır.

Tədqiqatın ikinci fəslində qarşımızda duran vəzifəni yerinə yetirmək üçün biz tipoloji- müqayisəli metoddan istifadə etmişik. Tipologiyanın əsasında hər bir obyektin tərkib hissələrə ayrılması və onların ümumiləşdirilmiş model yaxud tip vasitəsi ilə qruplaşdırılması dururdu. Müqayisəli təhlilə əsaslanaraq bu metod hər bir hadisənin ən əhəmiyyətli əlamətlərini üzə çıxarmağa imkan verir. Eyni zamanda, müəyyən hallarda bəzi estetik-bədii hadisələr bir-birindən həm zaman, həm məkan baxımından çox uzaq olduğundan, adi müqayisə onların mühüm əlamətlərini, münasibətlərini bütün zənginliyi ilə üzə çıxarmaq üçün kifayət etmirdi. Belə hallarda yalnız tipoloji müqayisə özünü doğrulda bilər.

---

[1] Qarayev Y. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzilləri. Bakı: Elm, 2002, s.402
[2] Cəfər M. Azərbaycan ədəbiyyatında romantizm. Bakı: Az.SSR EA,1963, s.32

İkinci fəslin birinci yarımfəsli "C.Q.*Bayronun və H.Cavidin yaradıcılığında mübariz qəhrəman obrazının xüsusiyyətləri"* adlanır.

Bayronun yaradıcılığı haqlı olaraq Qərbi-Avropa romantizminin zirvəsi hesab olunur. XIX əsrdə Bayronun obrazı artıq bütöv bir nəslin obrazına çevrilir, Qərbi -Avropanın təfəkkür tarixində ayrıca bir dövrü edirdi.

Bayron XIX əsrin əvvəlində Qərbi Avropada mövcud olan bütün təzadları öz yaradıcılığında tam aydınlıqla əks etdirdi.

Avropada o dövrdə köhnə sosial, mənəvi, siyasi strukturlar dağılır, yeni münasibətlər formalaşırdı. Bu proses həm ayrı-ayrı fərdlərə, həm də cəmiyyətin bütün təbəqələrinə böyük əzablar, iztirablar gətirmişdi. "Bayronizm" məfhumu da məhz bu iztirabların əsasında meydana gəlmişdi. "Bayronizm" dünyəvi kədər demək idi və bu kədər Böyük Fransız inqilabına bəslənən ümidlərin puç olmasının əks-sədası idi.

Cavidin yaradıcılığı çox mürəkkəb, ziddiyyətli bir dövrə təsadüf etmişdir. I Dünya Müharibəsi, Yaxın Şərqdə və Rusiyada inqilablar, Azərbaycanda milli-azadlıq hərəkatının güclənməsi və başqa mühüm tarixi hadisələr sözsüz ki, dahi romantikin dünyagörüşünə, yaradıcılığına güclü təsir göstərirdi. Təbii ki, bu proseslər Cavidin əsərlərində öz əksini tapırdı.

Hər iki romantikin yaradıcılığında olan əsas motivlər-insanpərvərlik, zorakılığa və zülmkarlığa qarşı etiraz, zəka, insanın dünyaya yüksək duyğu, mənalı həyat üçün gəldiyinə inam - bütövlükdə romantik yaradıcılığın qayəsini təşkil edirdi.

Təsadüfi deyil ki, hər iki romantik ayrı-ayrı dövrlərdə və ölkələrdə yaşayıb yaratdığına baxmayaraq, eyni sosial-mənəvi problemlərlə üzləşib və ideya, məzmun baxımından oxşar əsərlər yaratmışdılar. Bu səbəbdən İngilis və Azərbaycan romantizminin ən parlaq nümayəndələrinin əsərlərinin müqayisə üçün seçilməsi tam məntiqli görünür. Tədqiqat işində müqayisə üçün Bayronun "Qabil"[1] və Cavidin "İblis"[2] əsərləri seçilib. Təhlil üçün məhz bu iki əsərin seçilməsinin bir sıra səbəbləri var. Birincisi, bu əsərlər hər iki söz ustasının yaradıcılığında mühüm mərhələ təşkil edir. İkincisi - hər iki əsər həm də forma baxımından oxşardır, yəni "İblis" və "Qabil" - dramatik əsərlərdir. Burada bir məqamı da qeyd etmək lazımdır: bəzi tədqiqatçılar "Qabil" əsərini poema - dialoq hesab edir. Bu da əsərdə hadisələrin az olması və məzmunun əsasən dialoqlarda açıqlanması ilə bağlıdır. Buna baxmayaraq, "Qabil" bütün göstəriciləri baxımından tam

---

[1] Bayron Corc Qordon. Seçilmiş əsərlər. Bakı: Şərq-Qərb, 2006, 224 s.
[2] Cavid H. Əsərləri: 5 cilddə, III c., Bakı: Lider, 2005, 304 s.

haqlı olaraq dramatik əsərlərə aid edilir. Bayron və Cavid yaradıcılığında əsas məqam – mövzu oxşarlığıdır - Tanrı, İblis və İnsan!

Bayronun və Cavidin yaradıcılığı dünya romantizimi tarixinin və onun Şərqdə və Qərbdə hansı xüsusiyyətlərə malik olduğunu üzə çıxarılması üçün çox geniş imkanlar yaradır. Qərbdə romantiklərin əksəriyyəti Şərqin zəngin bədii irsinə tez-tez müraciət edib, ondan bəhrələnmişdir. Bayrona gəldikdə isə, şairin Şərqə marağı, rəğbəti onun bir söz ustası kimi formalaşmasında çox böyük rol oynamışdı. Əslində bu cəhd dünya romantizminin aparıcı ideoloji tendensiyalarından biri hesab olunur.

Hüseyn Cavidin yaradıcılığı çox maraqlı xüsusiyyətləri ilə seçilir. Bir tərəfdən Şərqin bədii-fəlsəfi təfəkkürü ilə üzvi şəkildə bağlı olan Cavid digər tərəfdən dünya mədəniyyəti, o cümlədən Avropa ədəbiyyatı ilə yaxşı tanış idi. Cavid daim axtarışda olan, çox orijinal, özünəməxsus düşüncəyə malik bir ədib idi.

Göründüyü kimi, hər iki şairin yaradıcılığı oxşar tarixi şəraitdə, ictimai durumda, hadisələr içində inkişaf edirdi. Bu da onu göstərir ki, təhlil olunan əsərlər zahiri əlamətləri ilə deyil, hər iki söz ustasının yaradıcılığını müəyyən edən hadisələrin, məzmunun mahiyyəti baxımından təhlil oluna bilər. Belə oxşarlığa dünya ədəbiyyatında çox nadir hallarda rast gəlmək mümkündür.

İkinci fəslin ikinci yarımfəsli *"İngilis və Azərbaycan romantizmində azadlıq mövzusunun fərqli və oxşar cəhətləri"* adlanır.

XX əsrin əvvəlində Azərbaycanda millət və onun azadlığı uğrunda ideoloji qarşıdurma görünməmiş vüsət almışdı. Romantizmin ən mühüm və ən mürəkkəb mövzusu xalqın millət kimi təşəkkül tapması, azadlığını duyması və onun uğrunda mübarizə aparması ideyası idi. Azərbaycan xalqının böyük ideoloqu Əli bəy Hüseynzadə mütərəqqi millətçi ziyalıları Əhməd bəy Ağaoğlu, Hüseyn Cavid, Abbas Səhhət, Məhəmməd Hadi və başqaları təqiblərə, təzyiqlərə və hədələrə baxmayaraq xalqın azadlığı mövzusunu qaldıraraq və dərinləşdirərək, millət problemini çox kəskin şəkildə qoymağı bacardılar, milli ideologiya yaratmağa nail oldular.

Onlar bunu qeyri-adi təfəkkürləri, qəlbində daşıdıqları uca milliyyət duyğusunun fövqəlbəşəriliyi hesabına etdilər, xalqı müsəlman ümməti fəlsəfəsindən millət müstəvisinə qaldırdılar. Əli bəy Hüseyinzadənin yaratdığı "Türkləşmək, İslamlaşmaq, Müasirləşmək"şüarı ilə romantiklər böyük türk dünyasını bu üç çevrədə bir araya gətirmək istəyirdi. Avropada Böyük Fransız inqlabı Maariflənmə dövrünün "Azadlıq, Bərabərlik, Qardaşlıq" şüarları altında baş verdiyi kimi, Azərbaycan romantikləri də,

Əli bəy Hüseynzadənin şüarını salamlayır, ona əsaslanırdılar. Lakin, Avropa maarifçilərinin şüarları abstrakt xarakter daşıdığı halda, Azərbaycan romantikləri konkret ideya ilə çıxış edir, dəqiq "hədəfə" vururdular. Məhəmməd Hadinin şerlərində həmin "hədəfin" adı dəqiq şəkildə verilir - millətin azadlığı. Yaşadığı cəmiyyətdən və millətinin çəkdiyi əzabdan usanan Hadi hələ gənc yaşlarında yazırdı:

İmzasını qoymuş miləl-övraqi-həyatə,
Yox millətimin xətti bu imzalar içində.[1]

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yaranmış, millətin ən mütərəqqi ziyalıları hakimiyyətə gəlmişdi. Cümhuriyyətin ana dilində rəsmi mətbuat orqanı olan"Azərbaycan" qəzetində Məhəmməd Hadinin ən millətçi, ən üsyankar şeirləri dərc olunurdu. Hadi şeirlərində milli bayrağı, sentyabrın 15-də qəzetin ilk sayında Məhəmməd Hadinin "Türk nəğməsi" şeiri çap olundu. Bu şeir sonadək qəzetin fəaliyətinin ana xəttini, leytmotivini təşkil edirdi: Xalqa, o zaman mövcud olan cəmiyyətə çağırışlar, müraciətlər A.Səhhət poeziyası üçün çox səciyyəvidir. "Dəvət" (1906), "Naleyi-təhəyyür yaxud millətə xitab"(1907) şerləri məhz bu ruhda yazılıb. "Dəvət" şerində şair yazır:

Tərk edək həm ixtirafü iftirağı, yar olaq,
Bu vətən övladının əhvalına qəmxar olaq.[2]

Bu poetik mətndə dahi ingilis romantik şairi Persi Bişi Şelli ilə müəyyən oxşarlıq üzə çıxır. Şellini yaradıcılığı da azadlıq sevgisi ilə çoşub daşırdı. Lakin, Bayronun əsərlərindən fərqli olaraq, Şelli çox nikbin idi və fərdiyyəçilikdən uzaq idi. Şellini bəzən "ilk utopik sosialist şairi"də adlandırıdılar. Bu ad ona təsadüfi verilməmişdi. Şellinin əsərlərində o zaman getdikcə populyarlaşan sosialist ideyalarının əlamətləri aşkar hiss olunurdu. Lakin Şellinin ideyalarını, dünyaya baxışnı "siyasi sosializm"lə qarışıq salmaq düzgün olmazdı. Şelli bərabərliyi, təbəqə bölgüsündən azad olan cəmiyyəti tərənnüm edir və bu yolda mübarizədən çəkinməməyə çağırırdı. Bu baxımdan Şellinin qəhrəmanları Bayronun fərdiyyətçi qəhrəmanlarından çox fərqlənir və Azərbaycan romantikləri ilə yaxınlıq məhz bu məqamda üzə çıxır.

---

[1] Hadi Məhəmməd. Əsərlər. cilddə, I c., Bakı: Elm, 2002, s.336
[2] Səhhət A. Əsərləri. Bakı: Lider Nəşriyyatı, 2005, s.15.

Azərbaycan romantikləri bütün dərdlərin çarəsini milli qurtuluşda, milli müstəqillikdə gördüyü halda, Şelli öz vətəninin yırtıcı simasını üzə çıxarır və vətənində mövcud olan quruluşu tam dəyişməyə çağırırdı. İrlandiya üsyançıları ilə görüşlərinin birində Şelli qeyd edir: "Mən ingilisəm. Lakin, mən həmvətənlilərimin törətdiyi haqsızlıqlara, cinayətlərə görə xəcalət çəkirəm. İngiltərə hökuməti bizim də düşmənimizdir, odur ki, biz birləşib, demokratiya və respublika uğrunda mübarizə aparmalıyıq!"[1]

İngilis və Azərbaycan romantizminin müqayisəli təhlili nəticəsində bir sıra qanunauyğunluqlar, tipoloji xüsusiyyətlər üzə çxır.

Regional və milli fərqli cəhətlərlə yanaşı, dünya romantizmi ümumi tipoloji cəhətlərə də malik idi. Bu cəhətlərin biri və bəlkə də ən əsası romantizmin irəli sürdüyü insan konsepsiyası idi. Romantik ədəbiyyatın irəli sürdüyü insan konsepsiyası ədəbiyyatda, incəsənətdə tam yeni bir söz, yeni bir mərhələ idi. Bununla yanaşı, bu konsepsiyanın hər bir milli ədəbiyyatda öz fərqli xüsusiyyətləri var idi. Bu səbəbdən, insan konsepsiyası, onun fərqli və ümumi cəhətlərinin müqayisəli təhlil yolu ilə üzə çıxarılması çox ciddi elmi əhəmiyyət kəsb edir. Həmin təhlil üçün məhz Azərbaycan və ingilis romantizminin seçilməsi məqsədəuyğundur. İngilis romantizmi Qərbi Avropa romantizminin, Azərbaycan romantizmi isə Şərq romantizminin ən səciyyəvi xüsusiyyətlərini özündə cəmləşdirib.

Romantizmin başlıca ideyası-idealın və real gerçəkliyin bir araya sığmamasından, həyatda olan ziddiyətlərdən, haqsızlığa qarşı mübarizədən ibarətdir. Mənəvi zənginliyin və maddi başlanğıcın qarşı-qarşıya qoyulması sırf romantik cəhətdir. Bu baxımdan Azərbaycan romantikləri ingilis romantikləri ilə həmrəy olub, hər iki mili romantizmin eyni problemlərə-şəxsiyyət və cəmiyyət, incəsənətin rolu, yaradıcı insanın cəmiyyətdə mövqeyi, xeyir və şər, haqq və ədalət problemlərinə müraciət etməsi artıq səciyyəvi xüsusiyyət kimi üzə çıxır. Romantik ədəbiyyat tam yeni bir insan konsepsiyası yaratmışdı. Həmin konsepiyaya uyğun olaraq, insan, şəxsiyyət hər şeydən əvvəl azad olmalı, haqsızlığa qarşı mübarizə aparmalıdır. Romantiklər öz qəhrəmanlarını qlobal, bəşəri miqyaslı problemlərlə üz-üzə qoyur, sanki onların mətinliyini sınağa çəkir və romantik qəhrəman həmin sınaqlardan şərəflə çıxsada, onun mübarizəsi bir çox hallarda faciəvi şəkildə sona yetir.

İngilis və Azərbaycan romantizmində yaranan insan, romantik qəhrəman konsepsiyasında ciddi fərqlər də nəzərə çarpır. Azərbaycan

---

[1] Неупокоева И.Г. Революционный романтизм Шелли. М.: Гос. Изд-во Художественная литература, 1979, с. 121

romantiklərinin yaratdığı romantik qəhrəman bədbinlikdən uzaqdır. Bu qəhrəmanlar heç zaman cəmiyyətin "artıq üzvü" olmamış, əksinə cəmiyyətin həyatında yaxından iştirak etmişlər. Cavidin, Səhhətin, Hadinin yaratdığı qəhrəmanlar da tənhadlr, lakin onlar öz tənhalığını nümayiş etmir və bu tənhalıq cəmiyyətdən təcrid olunmaqla nəticələnmir. Azərbaycan romantikləri öz qəhrəmanlarını heç bir abstrakt, ideal məkanda təsvir etmirdilər, belə üsula ehtiyac duymurdular. Bu tam təbii idi, çünki XX əsrin əvvəlində Azərbaycanda, bütün Yaxın Şərqdə baş verən hadisələrin fonunda müəllifin abstrakt ideya və məkana müraciət etməsi yersiz görünərdi. İngilis ədiblərinin yaratdığı romantik qəhrəman Şərqi ideal bir aləm hesab etdiyi halda, Azərbaycan romantikləri Şərqdə olan vəziyyəti daxildən bilir və öz qəhrəmanlarını daha real mühitə salırdılar. Azərbaycan romantikləri gələcəyə daha böyük nikbinliklə baxırdılar, çünki ingilis romantiklərindən fərqli olaraq, onlar inqilabın nəticələrindən məyus olmamışdılar, inqlaba bəslədiyi ümidləri də puç olmamışdı. Azərbaycan romantiklərinin yaratdığı qəhrəmanlar gələcəyə ümidlə baxır, nikbin əhval-ruhiyyə ilə fəaliyyət göstərirdilər. Bunlar hər bir fərdiyyətçilikdən uzaq, xalqın xoşbəxt gələcəyi uğrunda döyüşən şəxslərdir. İngilis romantizmindən fərqli olaraq, bu qəhrəmanlar abstrakt müstəqillik uğrunda deyil, konkret məqsədlə, milli azadlıq hərakatında fəaliyyət göstərirlər. Daha bir fərq- Azərbaycan romantizmində qəhrəmanın nifrət bəslədiyi əfsanəvi Şərq hökmdarı obrazı yoxdur. İngilis romantizmində qəhrəman bəzən eqoizm nümayiş etdirdiyi halda, Azərbaycan romantizmində eqoizm hissi qəhrəmana yaddır. İngilis romantizmində milli azadlıq ideyası səslənmir. Bu da tam məntiqidir, çünki Britaniya imperiyası üçün, ingilislər üçün belə problem mövcud deyildi. Azərbaycan romantizmində isə milli azadlıq, müstəqillik mövzusu aparıcı rol oynayır. Bu cəhət daha bir xüsusiyyətin formalaşmasını müəyyən etmişdi. Belə ki, Azərbaycan romantikləri Şərq ədəbiyyatının ənənələrinə zidd olaraq, "sevgili", "nazlı pəri" deyərkən, öz doğma vətənini nəzərdə tuturdular. Bu "nazənin dilbər" (Hüseyn Cavid) romantik qəhrəmana ümid bəsləyir, ondan kömək diləyirdi. Azərbaycan romantiklərinin fikrincə, vətən sevgisi ən gözəl sevgidir və hər bir insan ilk növbədə vətən təəsübkeşliyini çəkməli, onun yolunda çalışıb-vuruşmalıdır. Ümumiyyətlə, Azərbaycan romantiklərinin publisistik fəaliyyəti milli romantizmdə insan konsepsiyasına ciddi təsir östərirdi.

Göründüyü kimi, Azərbaycan romantizmi ingilis romantizmi ilə müqayisədə fərdi üsyankarlıqdan daha çox vətəndaş mövqeyinə yaxın idi və Azərbaycan romantiklərinin qarşısında konkret məqsəd-vətənini

azadlığa çıxarmaq, xalqını maarifləndirmək, onu müstəqil görmək məqsədi dururdu. Azərbaycan romantizmi çox dərin ictimai məzmun daşıyır və tənha qəhrəmanın deyil, bütün xalqın taleyini özündə əks edirdi.

Həm İgilis, həm Azərbaycan ədəbiyyatı ümumdünya ədəbi prosesi çərçivəsində inkişaf edib. İki milli romantizmdə insan konsepsiyasının müqayisəsi onun xüsusiyyətlərinin və keçdiyi təkamül yolunun daha dolğun mənzərəsini göstərmək üçün daha geniş imkanlar yaradır.

Dissertasiya işinin əsas məzmunu və müddəaları müəllifin aşağıdakı məqalə və tezislərində öz əksini tapmışdır:

1. Abbas Səhhətin romantik dünya görüşünün xüsusiyyətləri // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Bakı: Bakı Slavyan Universiteti, 2014, №1,s.149-151
2. Şellinin "Azad olunmuş Promotey" əsəri İngilis romantizminin təcəssümü kimi // Dil və ədəbiyyat, Bakı: Azərbaycan Dilllər Universiteti, 2014, №2, s.185-188
3. Azərbaycan romantizmi Vəli Osmanlının tənqidi əsərlərində Azərbaycanşünaslığın aktual problemləri / Ümummilli lider H.Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş VI Beynəlxalq elmi konfrans. Bakı: Bakı Slavyan Universiteti, 5-7 may, 2015, s.393-396
4. Azerbaycan Romantizmi ile bağlı Memmed Cafer`in araştırmaları // Yeni Türkiye dergisi 6-ci cild, Türkiyə: 2015, 76 sayı, s.244-248
5. İngilis romantiklərinin yaradıcılığında qəhrəman konsepsiyasının xüsusiyyətləri // Elmi xəbərlər. Gəncə: Gəncə Dövlət Universiteti, 2015, №2, s.161-165
6. Особенности пассивного романтизма в Англии // Киевский национальный университет имени Тараса Шевченко, Научное издание «Язык и культура». том III(178), Киев: 2015, Выпуск 18, с.117-123
7. C.Q.Bayron və H.Cavid yaradıcılığında romantik qəhrəman konsepsiyasının xüsusiyyətləri / Ulu öndərin anadan olmasına həsr olunmuş "Ulu öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər" Beynəlxalq Elmi Konfrans. Bakı: Bakı Slavyan Universiteti, 3-5 may, 2016, s.331-334
8. İngilis və Azərbaycan romantiklərinin yaradıcılığında azadlıq Mövzusu // Elmi xəbərlər, Gəncə:Gəncə Dövlət Universiteti, 2017, №2, s.120-124
9. Byronic Hero / Gənc alimlərin II Beynəlxalq elmi konfransı. Gəncə: Gəncə Dövlət Universiteti. 26-27 oktyabr, 2017, s.364-366

10. Romantic period in English literature // Tbilisi: Iakob Gogebashvilli Telavi State University, 2017, №1, s.126-130
11. Azərbaycan və İngiltərədə romantik cərəyanın meydana gəlməsinin tarixi səbəbləri // Naxçıvan Universiteti, Elmi əsərlər, 2018, №1, s.141-146

И.С.Рустамова

# КОНЦЕПЦИЯ ЧЕЛОВЕКА В АНГЛИЙСКОМ И АЗЕРБАЙДЖАНСКОМ РОМАНТИЗМЕ


## Резюме

Диссертационная работа состоит из введения, двух глав, четырех параграфов, заключения и списка использованной литературы.

Во введении представлены актуальность, степень разработанности, объект, цели и задачи исследования, его научная новизна, методологическая основа, теоретическая и практическая значимость, раскрываются методы и способы исследования.

Первая глава – "Типология героя азербайджанского и английского романтизма". Романтизм один из основных процессов всемирной литературы, который возник в Европе в конце XVIII века. Он охватывает очень важный исторический период и играет большую роль в формировании национальной культуры и литературы. В этой главе рассматриваются формирование, развитие, типологические и специфические особенности романтического героя в азербайджанском и английском романтизме.

Вторая глава – "Сравнительный анализ концепции личности романтического героя у английских и азербайджанских романтиков". В этой главе основная цель исследования – сопоставительное исследование образцов творчества английских и азербайджанских романтиков, для выявления общих и специфических особенностей, определяющих концепцию человека в романтическом мировосприятии. Здесь также исследуются особенности отражения этой концепции на литературу, культуру и общественную мысль этих народов.

В заключении обобщены результаты исследования и сделаны соответствующие научные выводы. Также выдвигаются конкретные научно-обоснованные предложения по рассмотренным проблемам.

I.S.Rustamova

# HUMAN CONCEPT IN ENGLISH AND AZERBAIJAN ROMANTICISM

Summary

The dissertation consists of an introduction, two chapters, four paragraphs, conclusion and bibliography.

The introduction presents the relevance of the degree of elaboration of the object, purpose and objectives of the study, its scientific novelty, methodological basis, theoretical and practical importance, disclosure of methods and techniques of research.

The first chapter is titled "The typology of the hero of the Azerbaijani and English Romanticism." Romanticism was an artistic, literary, and intellectual movement that originated in Europe at the end of the $18^{th}$ century. It covers a very important historical period, and plays an important role in the formation of national culture and literature. This chapter discusses the formation, development, typological and specific features of the romantic hero in Azerbaijani and English romanticism.

The second chapter is titled "Comparative analysis of the concept of the personality of the romantic hero in the works of English and Azerbaijani romantics". In this chapter, the main purpose of the study is a comparative review of samples of creativity of British and Azerbaijani romantics, to identify common and specific features that define the concept of person in the romantic worldview. It is explored the particular reflection of this concept in the literature on the thought and culture of these nations.

Conclusion summarizes the results of the study and makes the relevant scientific findings. Finally are offered specific proposals for science-based review of the problem.

Çapa imzalanıb: 24.05.2018
Format: 60x84 1/16. Tiraj: 100.

---

“Mütərcim” Nəşriyyat Poliqrafiya Mərkəzi
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
*e-mail: mutarjim@mail.ru*

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ

На правах рукописи

ИЛЬХАМА САЛЕХ гызы РУСТАМОВА

# КОНЦЕПЦИЯ ЧЕЛОВЕКА В АНГЛИЙСКОМ И АЗЕРБАЙДЖАНСКОМ РОМАНТИЗМЕ.

5718.01 – Мировая литература (английская литература)

АВТОРЕФЕРАТ

диссертации на соискание ученой степени
доктора философии по филологии

Баку – 2018